**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NİZAMİ GƏNCƏVİ ADINA ƏDƏBİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**AYNURƏ NİYAZ qızı PAŞAYEVA**

# "AZƏRBAYCAN" JURNALINDA PUBLİSİSTİKA MƏSƏLƏLƏRİ (1953-2010)

5716.01 – Azərbaycan ədəbiyyatı

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2018**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Mətbuat tarixi və publisistika şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Asif Heydər oğlu Rüstəmli,**
filologiya üzrə elmlər doktoru

**Rəsmi opponentlər:** **Şirindil Həsən oğlu Alışanlı,**
filologiya üzrə elmlər doktoru, professor

**Allahverdi Məhərrəm oğlu Məmmədli,**
filologiya üzrə elmlər doktoru

**Aparıcı təşkilat:** Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan və dünya ədəbiyyatı kafedrası

**Müdafiə** 16 mart 2018-ci il saat 14:30-da Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində filologiya üzrə elmlər doktoru və filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilən dissertasiyaların müdafiəsini keçirən D.01.131- Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ-1143, Bakı şəhəri, H.Cavid prospekti 115, Akademiya şəhərciyi, Əsas bina, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elektron akt zalı, IV mərtəbə.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat 12 fevral 2018-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının**
**Elmi katibi:** **İsmixan Məhəmməd oğlu Osmanlı,**
**filologiya üzrə fəlsəfə doktoru**

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Xalqın ədəbi-mədəni, ictimai-siyasi həyatı ilə sıx bağlı olan milli mətbuat yalnız informasiya yaymaq missiyasını həyata keçirmir, o, eyni zamanda, estetik zövq aşılayan, maarifçilik ideyalarını təbliğ edən, cəmiyyətin təkamülündə misilsiz rol oynayan çoxşaxəli təbliğat sistemidir.

Azərbaycan xalqının milli dirçəliş yoluna qədəm qoyması, dövlətçilik ideyalarının formalaşmasında milli mətbuatın rolu əvəzolunmazdır.

Ümummilli lider Heydər Əliyev mətbuatın bu istiqamətindəki rol və vəzifələrini belə ümumiləşdirmişdir: "Mətbuat demokratiyanı dərinləşdirən, siyasi inkişafa təkan verən qüdrətli vasitədir. Bu gün əsas vəzifə onun geniş imkanlarından milli dövlət quruculuğunda, demokratik dəyərlərin bərqərar edilməsində, sivil vətəndaş cəmiyyətinin formalaşmasında, islahatların həyata keçirilməsində, insanların mənəvi saflaşmasında səmərəli istifadə etməkdən ibarətdir. Mətbuat həyatın güzgüsü, həqiqətin carçısı olmalıdır, insanları yüksək ideallar uğrunda mübarizəyə səsləməli və səfərbər etməlidir"[1].

Mürəkkəb, ziddiyyətli və şərəfli inkişaf yolu keçmiş milli mətbuatımız həmişə xalq həyatının güzgüsü olmuşdur. Mətbuat yaradıcılığının tərkib hissəsi olan publisistika, o cümlədən, bədii publisistika sənətkarla oxucu arasında operativ dialoq yaradan, sinkretik xarakterli, öz spesifikasını müəllif tendensiyası ilə açan, ölkənin ictimai-siyasi və ədəbi-mədəni həyatında intensiv rol oynayan yaradıcılıq sahəsidir.

Milli mətbuatımızın əvəzsiz örnəklərindən olan "Azərbaycan" jurnalı mənsub olduğu adını daşıyana qədər, 30 il müddətində siyasi-ideoloji sahədə baş verən dəyişikliklərlə əlaqədar olaraq "Maarif və mədəniyyət" (1923-1927), "İnqilab və mədəniyyət" (1928-1936), "Revolyusiya və kultura" (1936-1941), "Vətən uğrunda" (1941-1946), "İnqilab və mədəniyyət" (1946-1952) sərlövhəsi ilə işıq üzü görmüşdür. 1923-cü ildə fəaliyyətə başlayan "Maarif və mədəniyyət" jurnalının əsas məqsədi ölkədə mütərəqqi ictimai düşüncəni, klassik bədii əsərləri təbliğ etmək, qədim və zəngin maddi-mənəvi irsimizi tanıtmaq missiyasını şərəflə yerinə yetirmək olmuşdur.

---

[1] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Bakı: Azərnəşr, 2007, s. 42-43.

Lakin təəssüflə qeyd etməliyik ki, həmişə mənsub olduğu zamanın ədəbi aynası olan "Azərbaycan" jurnalında dərc edilmiş materiallar, o cümlədən, publisistika ətrafında indiyədək aparılan tədqiqatlar daha çox sovet ideologiyası müstəvisində aparılmışdır. Publisistikanın poetikası, estetik idealları, yeni tematika və üslub istiqamətləri ilə bağlı fundamental araşdırmalar ortaya qoyulmamışdır. Bu mənada "Azərbaycan" jurnalında publisistika məsələləri (1953-2010)" mövzusu mühüm aktuallıq kəsb edir. Digər tərəfdən, müasir dünya ədəbi düşüncəsində publisistikanın getdikcə artmaqda olan mövqeyi bu sahəyə yeni yanaşma tərzi tələb edir ki, bu da mövzunun aktuallığını bir daha şərtləndirən faktor kimi nəzərə alınmalıdır.

Müstəqillik dövrü "Azərbaycan" jurnalında dərc olunmuş publisistik materialların ideya-estetik xüsusiyyətləri, üslub zənginliyi, azadlıq uğrunda mübarizə əhval-ruhiyyəsi, Qarabağda və onun ətrafında baş verən hadisələri təfərrüatı ilə işıqlandırmaq meyli onu göstərir ki, bu jurnal müstəqillik dövrü bədii-publisist salnaməsini yaratmağa çalışır, publisistikamızın elmi, ictimai-siyasi mühakimə gücünü artırır, ədəbiyyatımızda yeni forma və üslublar yaradır. Bütün bunları diqqətlə və əhatəli surətdə araşdırmaq, heç şübhəsiz ki, müasir ədəbi prosesin tədqiqi vəzifələrini genişləndirəcək və ümumən, ədəbiyyatşünaslıq elmimizin inkişafına öz töhfəsini verəcəkdir.

**Araşdırmanın obyekti və predmeti.** 1953-2010-cu illərdə "Azərbaycan" jurnalında dərc olunmuş elmi, bədii və siyasi mövzulu publisistik əsərlər tədqiqat işinin obyektidir. Həmin əsərlərin təhlili, mövzu və problematikasının öyrənilməsi, elmi-nəzəri qaynaqları dissertasiya işinin predmetini təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** "Azərbaycan" jurnalında publisistika məsələlərini tarixi-tipoloji və müqayisəli-analitik metodla araşdırmaq tədqiqat işinin əsas məqsədini təşkil edir. Bu baxımdan, aşağıdakı araşdırma, təhlil və dəyərləndirmələr tədqiqat işinin qarşısında duran vəzifələrdir:

- Sovet dövrü "Azərbaycan" jurnalında dərc edilmiş publisistik əsərlərin səciyyəvi xüsusiyyətlərini və mövzu problematikası;
- Sovet dövrü bədii publisistikasında neftçi obrazları və neft faktoru;
- "Molla Nəsrəddin" və mollanəsrəddinçilər haqqında elmi-publisistik araşdırmaların əhəmiyyəti;
- Sovet dövrü publisistikasında beynəlxalq ədəbi-mədəni əlaqələr mövzusunun səciyyəvi cəhətləri;
- Müstəqillik dövrü bədii publisistikasında Qarabağ müharibəsi və azərbaycanlılara qarşı soyqırım faciələrinin bədii inikası;

- Sovet dövrü və müstəqillik dövrü publisistikasının portret-oçerklərinin tarixi şəxsiyyətlərin xarakterik xüsusiyyətlərini və cəmiyyətin inkişafında oynadıqları rolu;
- Müstəqillik dövrü publisistikasını düşündürən qlobal problemlər və onların həlli yolları;
- "Azərbaycan" jurnalı publisistikasında milli kökə qayıdış və türk dünyası, eləcə də Cənub mövzusu;
- "Azərbaycan" jurnalında dərc olunmuş publisistik əsərlərin sənətkarlıq xüsusiyyətləri: janr, üslub, dil, bədiilik baxımından təhlili.

**Mövzunun işlənmə dərəcəsi.** İctimai və elmi fikrin, bütövlükdə, mədəniyyətin mənzərəsini əks etdirən, çağdaş dünya ədəbiyyatı, mədəniyyətində gedən prosesləri, mövcud cərəyan və təmayüllərin milli düşüncədə təzahürünü, eyni zamanda, qloballaşma şəraitində ədəbiyyat və mədəniyyətimizin milli istiqamətlərinin qorunmasını təmin edən "Azərbaycan" jurnalı dövlət müstəqilliyinin bərpasından sonra daha obyektiv qiymətini almağa başladı. Vaxtilə sosrealizm metodunun tələbləri ilə verilən dəyərləndirmələr öz mahiyyətini qoruyub saxlaya bilmədiyindən istiqlal məfkurəsi, azərbaycançılıq ideologiyası müstəvisindən qiymətləndirməyə böyük ehtiyacı zəruri edir. Çünki müstəqillik illərində həm ictimai-siyasi, həm də ədəbi-mədəni proseslərə qarşı ümumi baxış dəyişmiş, çoxçeşidli problemləri dəyərləndirmək üçün yeni obyektiv imkanlar yaranmışdır.

"Azərbaycan" jurnalının fəaliyyətinin yeni dövrləri haqqında ilk geniş həcmli tədqiqat işi İbrahim Novruzovun 1968-ci ildə tamamladığı "Azərbaycan sovet ədəbiyyatının inkişafında "Maarif və mədəniyyət" ("İnqilab və mədəniyyət") jurnalının rolu (1923-1932-ci illər)" adlı dissertasiyası jurnalın 1923-1932-ci illərini əhatə edir. "Azərbaycan" jurnalının 53 illik (1923-1976) fəaliyyəti üzrə tədqiqat aparmış Rasim Tağıyev "Azərbaycan" jurnalı və Azərbaycan Sovet ədəbiyyatının aktual problemləri (1923-1976-cı illər)" adlı kitabında müəllif jurnalın ideya və məqsədlərini təhlil etmişdir. Lakin təhlil zamanı müəllif bir sıra məsələləri ideoloji tələblərə uyğun olaraq, daha çox konyuktiv mövqedən yanaşmışdır. Qeyd olunanlardan əlavə "Azərbaycan" jurnalı haqqında Tağı Şahbazi, akad. Bəkir Nəbiyev, fil.e.d. prof. Famil Mehdi, fil.f.d. Əmin Əfəndiyev, fil.f.d. Bəxtiyar Məmmədov, fil.f.d. Aygün Əzimova, İntiqam Qasımzadə və başqaları müxtəlif aspektlərdə araşdırmalar aparmışlar. Respublikamızda dövri mətbuat, publisistika mövzusunda çoxsaylı araşdırmalar aparılsa da, 1953-cü ildən indiyədək geniş bir dövrün ictimai-siyasi və ədəbi-bədii mənzərəsini əks etdirən "Azərbaycan" jurnalında publisistika məsələləri mövzusu geniş, sistemli tədqiqatlardan kənarda qalmışdır.

“Azərbaycan” jurnalı müasir dövrdə də Azərbaycanın ədəbi-mədəni həyatının aynasıdır. Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar jurnalın 90 illik yubiley sayında xüsusi olaraq jurnalın müasir dövrdəki oynadığı rolu qeyd edirdi: “Azərbaycan” jurnalı öz yaşarı ənənəsinə XXI əsrdə də sadiq qalır, ədəbiyyatımızın ümumi mənzərəsini yaratmaqda, onun müasir səviyyəsini, durumunu əks etdirməkdə, dünya ədəbiyyatının ən gözəl nümunələri ilə tanış olmaqda, ədəbi gəncliyi ruhlandırmaqda davam edir”[2]. “Azərbaycan” jurnalı zamanın diktə etdiyi hansı ideologiyaya az və yaxud çox dərəcədə əməl edən mətbu orqan olsa da, onun xalqın maddi və mənəvi sərvəti olmaq fikrini, ədəbi və mədəni sahədə ictimai düşüncənin inkişafındakı böyük əhəmiyyətli rolunu inkar etdirə bilməz.

**Araşdırmanın elmi yeniliyi.** Bu dissertasiyada “Azərbaycan” jurnalının 1953-2010-cu illər kimi böyük bir dövrü əhatə edən publisistik materialları ilk dəfə milli maraqlar kontekstində öyrənilmiş, aktual tematik problemlər konkret kateqoriyalar əsasında tədqiq olunmuşdur. Azərbaycan ədəbiyyatşünaslığında ayrı-ayrı məqalələrdə və digər araşdırmalarda epizodik şəkildə toxunulan bəzi problemlər ilk dəfə olaraq tədqiqat işi kimi götürülərək araşdırma obyekti olmuşdur. “Azərbaycan” jurnalının tədqiqi tarixi, XX əsrin mürəkkəb, təlatümlü, sarsıntılı ictimai-siyasi hadisələrini publisistikada əks etdimə bacarığı, sovet dövrü ideoloji konsepsiyasının mənfi cəhətlərinin tənqidi, müstəqillik dövrü publisistikasının əldə etdiyi nailiyyətlər, bəzi zəif inkişaf meyilləri, çatışmayan cəhətlər, ayrı-ayrı məqamlarında özünü büruzə verən suallara, ziddiyyətli fikirlərə aydınlıq gətirən, geniş araşdırmalar və əsaslandırılmış müddəalar nəticəsində formalaşan elmi qənaətlər tədqiqatın yeniliklər arsenalına daxildir. Tədqiqatda “Azərbaycan” jurnalının 1953-2010-cu illəri əhatə edən elmi, bədii və siyasi-publisistik məqalələri, oçerkləri, səyahətnamələri, sənədli povestləri və s. təhlil olunur, ədəbi prosesdəki yeri və əhəmiyyəti ilk dəfə müəyyənləşdirilir.

**Tədqiqatın metodologiyası.** Dissertasiya tarixi-tipoloji və müqayisəli-analitik metodlar əsasında hazırlanmışdır. Müasir ədəbi-nəzəri fikrin elmi prinsipləri, əldə etdiyi nailiyyətlər problemin öyrənilməsində rol oynamışdır.

**Araşdırmanın nəzəri və praktik əhəmiyyəti.** Tədqiqat işi ədəbiyyatşünaslıq sahəsində elmi-nəzəri təfəkkürün zənginləşməsi prosesinə xidmət edir. Tədqiqatın nəticələri humanitar elmlərlə məşğul olan alimlər, araşdır-

---

[2] Anar. 90 yaşlı müasirimiz // “Azərbaycan” jurnalı, 2013, №1, s.3-4.

maçılar, mətbuat tarixi mütəxəssisləri, filoloqlar və digər geniş oxucu auditoriyası üçün böyük maraq kəsb edə bilər.

**İşin aprobasiyası.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Mətbuat tarixi və publisistika şöbəsində yerinə yetirilmişdir. Tədqiqatın əsas nəzəri müddəaları tezis və məqalələr şəklində Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tələblərinə uyğun olaraq qəbul edilmiş məcmuə və jurnallarda, ölkə daxilində və xaricdə keçirilən beynəlxalq elmi konfranslardakı məruzələrdə öz əksini tapmışdır.

**Dissertasiyanın strukuru.** Tədqiqat işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, elmi-nəzəri və metodoloji əsası şərh olunmuş, tədqiqat işinin elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti aydınlaşdırılmışdır.

Dissertasiyanın **"Azərbaycan" jurnalında Sovet dövrü publisistikası (1953-1991)"** adlı birinci fəsli altı yarımfəsildən ibarətdir.

Birinci yarımfəsil **"Bədii publisistika və onun "Azərbaycan" jurnalında yeri"** adlanır. Publisistik ifadə tərzinin tarixi qədimlərə gedib çıxsa da, onun tədqiqinə müxtəlif ölkələrdə intensiv, bəzən də qeyri-intensiv yanaşma müşahidə edilmişdir. Çünki publisistika müxtəlif xalqlarda fərqli işləklik səviyyəsində olmuşdur. Tədqiqatımızın əsas obyekti olan bədii publisistikanın sərhədlərinin müəyyənləşməsində müxtəlif fikir ayrılıqları hələ də qalmaqdadır. Prof. F.Mehdi, prof. C.Məmmədli, fil.e.d. A. Rüstəmli, prof. A. Tertıçnı, prof. A.S. Eleonskaya, prof. Y.Proxorovun və b. bədii publisistikanın meyarlarının müəyyənləşməsi ilə bağlı müxtəlif fikirlər səsləndirsələr də, tədqiqatda prof. F.Mehdinin bölgüsü (oçerk, felyeton, pamflet, bədii gündəlik, məktub, açıq məktub, sənədli povest, sənədli novella, səyahətnamə, bədii nitq) əsas götürülmüşdür. Ümumiyyətlə, Azərbaycan bədii publisistikası, əsasən, yazıçı və şairlərimizin publisistik yaradıcılığı sayəsində təşəkkül tapmış, onun sənətkarlıq baxımından inkişafına əhəmiyyətli dərəcədə təsir göstərmişdir.

Sovet dövrünün publisistikasında süni şəkildə ideoloji, mənəvi-əxlaqi, ictimai-siyasi postulatları yalanlamaq cəhdi nə qədər güclü olsa da, bəzən

aşkar, bəzən də gizli şəkildə milli ideallara xidmət edən mətbu orqanlardan biri məhz "Azərbaycan" jurnalı idi.

Dissertasiyanın **"Sovet dövrü publisistikasının xarakterik xüsusiyyətləri və mövzu problematikası"** adlı ikinci yarımfəslində Sovet dövrü publisistikasının 1950-ci illər mərhələsi sosrealizmin qəti normativlər, empirik təcrübə mərhələsindən keçmiş potensial imkanlar dövrü, 1950-ci illərdə şəxsiyyətə pərəstişin ifşasından sonra ictimai-siyasi mühitin mülayimləşməsi, 1960-cı illərdə liberal düşüncə tərzi, 1985-ci ildən start götürən yenidənqurma və aşkarlığın yaratdığı şərait sovet dövrü publisistikasının demokratikləşməsinə təsir göstərən amillər kimi qiymətləndirilir.

Sovet dövrü tədqiqatlarında "xalqlar dostluğu" kimi dəyərləndirilən multikultural dəyərlər mövzusu (Mehdi Hüseynin "Dostluq və qardaşlıq ideallarının təntənəsi", Elçinin "Yanan ağacın şəfəqləri"), Böyük Vətən müharibəsində qəhrəman sovet döyüşçüsü surəti (Sabir Azərinin "İtməyən izlər", Ziya Bünyadovun şücaətlərindən bəhs edən Nəriman Zeynalovun "Qəlpə"), zəhmətkeş insan obrazları, beşilliyin qabaqcıllarına həsr olunmuş (Süleyman Vəliyevin "Aqronom", Əlfi Qasımovun "Sevil"), sosializmin üstünlüyü, kommunist partiyasının təntənəsinə həsr olunmuş oçerklər (Salam Qədirzadənin "Alovlu illər", Yusif Şirvan "Böyük jurnalist"), partiya plenumlarının müxtəlif kompaniyaları (Müsrəl Nəcəfovun "Dövrümüzə layiq əsərlər yaradaq", İlyas Əfəndiyevin "Bizim sevincimiz"), kənd, rayon mövzusunda (Həsən Seyidbəylinin "Kür-Araz düzənliyində", "Mingəçevir", İsmayıl Şıxlının "Azərbaycan uralı", Nemət Veysəllinin "Ötən ilin yağışları", Teymur Bünyadovun "Əfsanələr diyarı") olan oçerklər sovet dövrünün ideoloji kanonları ilə çərçivələnirdi.

"Azərbaycan" jurnalının, demək olar ki, bütün saylarında ədiblərin yubileyləri münasibəti ilə onların şəxsiyyətlərini, yaradıcılıqlarını xarakterizə edən məqalələr həm tədqiqatçıları, həm də müasirləri tərəfindən yazılıb çap olunurdu. Ədəbi portretlərin yaradılmasının bir səbəbi yubileylər, xatirə günləri və s. ilə bağlı idisə, digər səbəbi isə müəllifin böyük maraq və diqqətinin sayəsində gerçəkləşirdi. 1960-cı illərdən sonra bədii əsərlərdə avtobioqrafizmə marağın yüksəlməsi publisistikada şəxsiyyətlərə həsr olunmuş publisistik əsərlərin də sayının artmasına gətirib çıxardı. 1960-80-ci illər Azərbaycan bədii nəsrinin əsas inkişaf istiqamətlərindən biri tarixi mövzunun işlənilməsi və tarixi şəxsiyyətlərin bədii obrazının yaradılmasından ibarət idi.

Dissertasiyanın **"Publisistikada ədəbi portretlər"** adlı üçüncü yarımfəslində 1937-ci il repressiya qurbanı olan Mikayıl Müşfiqin obrazı Rəsul Rzanın "Unuda bilmirəm", Mir Mehdi Seyidzadənin obrazı "O, ilhamsız

yaşamırdı", Əhməd Cavadın obrazı Əli Saləddinin "Taleyin qorxulu nağılı", Mirzə İbrahimovun obrazı Yaşar Qarayevin "Torpağın övladı", Səməd Vurğunun obrazı Mustafa Ağa oğlu Topçubaşovun obrazı "Şirinli-acılı xatirələrim", Vəli Həbiboğlu obrazı "Yalanlar, həqiqətlər" portret-oçerklərində təhlil olunub.

Sovet dövrü oçerk tədqiqatlarında sosrealizm gerçəkliyini pərdələməyə daha çox üstünlük verilmişdi. Oçerklərdəki neftçi obrazları daha çox kollektivçiliyin, istehsalatın mənafeyinə xidmət edirdi. Sovet dövrünün ümumi iqtisadiyyatından asılı olan Azərbaycan neft sənayesinin iqtisadi, sosial potensialının yüksəldilməsində müəyyən rol oynamış, mətbuat həmin nailiyyətlərin əldə edilməsində ideoloji baxımdan xüsusi fəallıq göstərmişdir. Çünki həmin dövrdə publisistika rəhbərliyin iradəsinin təbliğatçısı və icraçısı olmuşdur.

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra dövlətimizin iqtisadi siyasətində neft amili əsas yer tutmuşdur. Buna görə də neft mövzusunda olan oçerklərin yeni aspektdən obyektiv şəkildə öyrənilməsi xüsusi aktuallıq kəsb edir.

Bu baxımdan "**Publisistikada neftçi obrazları və neft faktoru"** adlı dördüncü yarımfəsildə Sovet dövründə "Azərbaycan" jurnalında çap olunan Yusif Süleymanovun "Neftçi dostlar", Süleyman Vəliyevin "Geoloq" və s. oçerkləri əsasında neftçi obrazlarını təhlil etmək və neft faktorunun oynadığı rolu aydınlaşdırmağın böyük əhəmiyyət daşıyır.

"Molla Nəsrəddin" milli mətbuat tariximizdə satirik jurnalistikanın bünövrəsini qoyan, mübariz ruhlu satira məktəbi yaradan, klassika ilə müasirliyin vəhdətinə mühüm töhfələr bəxş edən ədəbi məktəbdir. Mollanəsrəddinçilər haqqında sanballı tədqiqatların müəllifi, akademik İsa Həbibbəylinin fikrincə türk-müsəlman dünyasında da demokratik mətbuatın bayraqdarı "Molla Nəsrəddin" olmuşdur. Azərbaycan mətbuatının inkişafında özünəməxsus yer tutan "Molla Nəsrəddin" jurnalının tanınmasında başda Cəlil Məmmədquluzadə olmaqla unudulmaz xidmətləri olan yazıçıların publisistik fəaliyyəti daim tədqiqat obyekti olmuşdur.

Dissertasiyanın **"Azərbaycan" jurnalının səhifələrində "Molla Nəsrəddin" ənənələri**" adlı beşinci yarımfəslində "Azərbaycan" jurnalında "Molla Nəsrəddin" jurnalının 60 illik yubileyinə həsr olunmuş 1967-ci il 5-ci sayında Əziz Şərifin "Fırtınadan doğulmuş", Kamal Talıbzadənin "Molla Nəsrəddin jurnalının ədəbi mövqeyi", Əziz Mirəhmədovun "Onun şairliyi də vardı", Ənvər Yusifoğlunun "Müqəddəs vətənim", Nazim Axundovun "Molla Nəsrəddin və Azərbaycan satirik mətbuatı" və s. məqalələrdə

əsas problem "Molla Nəsrəddin" jurnalı, Cəlil Məmmədquluzadə və mollanəsrəddinçilərin yaradıcılıq məsələləri araşdırılmışdır.

Keçmiş SSRİ-nin həyata keçirməyə çalışdığı beynəlxalq miqyaslı siyasətlərdən biri də xarici ölkələrlə münasibətdə "sülh və dostluq" siyasəti idi. Bu siyasətin nəticəsi kimi sovet dövründə azərbaycanlı publisistlər Avropa, SSRİ, uzaq Asiya ölkələrinə səfər edirdi. Ancaq bu dövrdə xarici ölkələrə olan səfərlər məqsədli şəkildə məhdudlaşdırılırdı. Tədqiqatçı B. Məmmədovun fikrincə, səfər olunan ölkə əgər SSRİ-nin dost olduğu ölkələr siyahısında idisə, publisist tərəfindən tənqidi fikirlərə yer verilmədən mütləq müsbət çalarda, təqdiredici qiymətləndirmə aspektindən oxucuya təqdim olunmalı idi. Ancaq SSRİ-nin düşmən hesab elədiyi ölkə olanda mənfi planda, yəni həmin ölkədə həyatın problemlərdən mövcud olduğunu oxucuya təlqin edilməli idi. Publisistlər əsərlərini senzuranın çap olunmamaq təhlükəsindən qorumaq üçün çox vaxt dövrün diktə etdiyi rejimə tabe olmaq məcburiyyətində qalırdı.

Müasir dövrdə Azərbaycan öz ədəbi-mədəni və elmi əlaqələrini beynəlxalq miqyasda tanıdan ölkələr sırasındadır. Beynəlxalq ədəbi-mədəni əlaqələrin inkişaf tarixinin araşdırılması baxımından sovet dövrünün bu oçerkləri gərəkli mənbələrdir.

Bu baxımdan **"Beynəlxalq ədəbi-mədəni əlaqələr və bədii publisistika"** adlı yarımfəsli araşdırmaq əhəmiyyətlidir. Azərbaycanlı yazıçıların bu sahədə atdıqları addımlar, sovet dövründə "Azərbaycan" jurnalında çap olunmuş oçerklərin beynəlxalq ədəbi-mədəni əlaqələrin inkişaf tarixinin öyrənilməsi, kultural informativliyinə görə müasir dövr Azərbaycan elmində xüsusi aktuallıq kəsb edən multikulturalizmin araşdırılması baxımından da əhəmiyyət daşıyır.

Sovet siyasi-ideoloji metodologiyası beynəlxalq ədəbi-mədəni əlaqələr mövzusuna birtərəfli yanaşma imkanı verirdi ki, bu zaman oçerklərdə qərb-burjua mühitinin tənqidini ön plana çıxarmaq məcburiyyəti də obyektiv təhlilə yol açmırdı. Beynəlxalq ədəbi-mədəni əlaqələr mövzusuna müraciətin keyfiyyətcə yeniləşmə imkanları məhz Azərbaycanın müstəqillik qazanması ilə gerçəkləşdi. "Azərbaycan" jurnalında səyahət oçerki janrında yazılmış əsərləri Avropa, Asiya və Afrika mövzusunda qruplaşdırıb araşdırmaq tədqiqat üçün daha məqsədəuyğun hesab olunmuşdur.

Avropa mövzusunda Mir Cəlalın "Fransa yollarında", Anarın "Fransa mayı", Mürsəl Nəcəfovun "İtaliyada gördüklərim", Nəbi Babayevin (Xəzri) "Ukrayna xatirələri", Afrika ölkələri ilə bağlı Elçinin "Palma ülfəti", "Yanan ağacın şəfəqləri" adlı oçerkləri, Hindistan və Yaponiya ədəbi-mədəni əlaqələri mövzusunda Xasay Vəzirovun "Hindistan xatirələri", Mirzə İb-

rahimovun “Hindistanda nələr gördüm”, Həsən Seyidbəylinin “15 gün Yaponiyada”, Bəkir Nəbiyevin “Yaponiyada gördüklərim” oçerkləri, Azərbaycan və Rusiya ədəbi-mədəni əlaqələri mövzusunda Osman Sarıvəllinin “Dostlar arasında yol qeydləri”, Süleyman Rüstəmin “Mayakovski haqqında xatirələr”, Əbülhəsənin “O illərin Sevastopolu”, Məhərrəm Qasımlının “Dəmirqapı Dərbənd” və s. oçerkləri “Beynəlxalq ədəbi-mədəni əlaqələr və bədii publisistika” yarımfəslinin tədqiqat obyektidir.

Sovet dövründə “Azərbaycan” jurnalında xarici publisistlərin müxtəlif mövzulara həsr olunan əsərləri yer almışdır. Bu mövzular mənsub olduqları ölkənin mövcud aktual problemlərindən başlayaraq Azərbaycana aid ictimai-siyasi məsələləri əhatə etdiyindən müasir dövr publisistika tədqiqatı üçün böyük önəm daşıyır. “Azərbaycan” jurnalında ana dilində çap olunan xarici müəlliflərin publisistik əsərlərini əhatə etdiyi mövzu dairəsinə görə 2 növ qruplaşdırıb tədqiqata cəlb etmək daha məqsədəuyğundur. Lev Vaysenberqin “Azərbaycan qəlbimdədir” xatirə-oçerki, Zezva Medulaşvilinin “Nağıllarınıza, dastanlarınıza vurğunam...” oçerki, Aleksandr Qriçin “Otuz ildən sonra” oçerki mövzu baxımından Azərbaycanla bağlıdır. Boris Baxtinin “Constaun fəlakəti”, B.Şubinin “Aleksandr Puşkinin xəstəlik tarixi və ya “Ələm kağızı” sənədli oçerki, Boris Sporovun “Qarşılıqlı münasibət”, Yuri Şerbakın “Çernobıl” sənədli povesti isə beynəlxalq miqyaslı aktual problemlərdən qaynaqlanırdı.

Müstəqillik dövrü publisistikası öz məzmun və forma yeniliyi ilə Azərbaycan mətbuatında düşüncə modelinin, baxış bucağının dəyişməsinə əsaslı təsir göstərə bildi və mövcud problem yeni yanaşma tərzinin, təhlil metodlarının meydana gəlməsini şərtləndirdi. Təqlidçilik, marksist-leninçi təhlil və təsvir prinsipləri arxa plana keçdi, dünyəvilik, obyektivlik və irsvarislik prinsiplərinə əsaslanan Azərbaycan publisistikası milli yaddaş, çağdaşlıq, müasirlik keyfiyyətləri ilə diqqəti cəlb edirdi. 1990-cı illər publisistikasının əsas tədqiq, təbliğ və təhlil obyekti müstəqillik ideyası, mənfur qonşuların əsassız ərazi iddiaları, qaçqınlıq, didərginlik, yurd həsrəti və digər problemlər idi.

Dissertasiyanın **“Müstəqillik dövrü “Azərbaycan”ında publisistika: problemlər, perspektivlər (1991-2010)”** adlı II fəsli **“Bədii publisistikada Qarabağ problemi”, “Publisistikada tarixi şəxsiyyətlər: sənət və həqiqət işığında”, “Publisistika müstəvisində ekoloji problemlər: baxışlar və axtarışlar”** adlı 3 yarımfəsildən ibarətdir.

“Azərbaycan” jurnalı publisistikasında Qarabağ problemi 1980-ci illərdə, gərgin münaqişələr və həssas tarixi zamanda ictimai-siyasi gündəmə daxil oldu. Mətbuatın Qarabağ uğrunda mübarizədə iştirakı əslində, müstə-

qillik uğrunda mübarizə tarixi ilə üst-üstə düşür. AMEA-nın müxbir üzvü Yaşar Qarayevin sözləri ilə qeyd etsək, "erməni-azərbaycan qarşıdurmasında toplardan, raketlərdən əvvəl iki mənəvi potensial – ağıllar, intellektlər üz-üzə durdular". "Azərbaycan" jurnalı publisistikasında Qarabağ mövzusu milli təfəkkürdə milli ərazi bütövlüyümüzün və azadlığımızın mübarizə kontekstində dərk edilir, problemin müxtəlif aspektlərdən inikası publisistikada yeni yaradıcılıq istiqamətlərinin formalaşmasına təkan verdi.

Dissertasiyanın **"Bədii publisistikada Qarabağ problemi"** adlı yarımfəslinin tədqiqat obyekti Bəylər Məmmədovun "Şuşanın dünəni, bu günü və sabahı...", Hamlet Qocanın "Suyu kimlər bulandırır?", Vahid Məhərrəmovun "Tapqaraqoyunlu alınmaz bir qalaya bənzəyirdi..", "Vəhşiliyin sonu varmı?", "Əsirliyin dəhşətli günləri", "Döyüşçü qızın cəbhə gündəliyi", Nurəddin Qənbərin "Gözün aydın Bakı, Xocalı Bakıya gəlir" və s. əsərləridir. Yüksək vətəndaşlıq qayəsi ilə qələmə alınan bu publisistik əsərlərdə əsas problem ermənilərin torpaq iddialarının tarixi kökü və erməni genosidinin ifşası, müharibə və onun dəhşətli faciələri fonunda hüznlü, dərin kədərli psixologizm, müharibənin məğlub olma səbəblərini araşdırmaq təşkil edir.

Qarabağ mövzusunda real fakt və hadisələrə söykənən publisistik materialların tarixi gerçəkliklə əlaqəli surətdə öyrənilib araşdırılması süni şəkildə erməni ekstremistlərinin uydurduqları Dağlıq Qarabağ probleminin meydana çıxmasının, siyasi-ideoloji kök və səbəblərini üzə çıxarmaqda, böhtan dolu erməniyönlü mətbu yazılara faktik cavab kimi mühüm əhəmiyyət kəsb edir. Çünki son dövrlərdə Qarabağla bağlı təhrif olunmuş yalan, böhtan dolu yazılar təkzib olunub dünya ictimai fikrini doğru istiqamətə yönəldilməsinə ehtiyac var.

1985-ci ildən başlan demokratiya, yenidənqurma və aşkarlıq siyasəti mətbuatdan kənarda qalan bir sıra tarixi şəxsiyyətlərin isimlərini yenidən ictimaiyyətə tanıtdırdı. Bədii publisistikada müəllif tarixi şəxsiyyətin obrazını yaradan zaman gerçəkliyə sadiq qalır, onun zahiri portreti, xarakterik fərdi cizgilərini dəyişdirmir, çünki, əks halda faktın məzmunu təhrif edilmiş olar. Tarixi şəxsiyyətlərin həyatının öyrənilməsində sənədli povestlərin də rolu əvəzsizdir.

Dissertasiyanın **"Publisistikada tarixi şəxsiyyətlər: sənət və həqiqət işığında"** adlı ikinci yarımfəslində Tofiq Abdin "Dövlət çevrilişi" sənədli povesti, prof. Murtuz Sadıqlının "M.Ə.Rəsulzadə. Ailəsinin faciəsi", Əli Saləddinin "Zamanın çərxi tərsinə dövran edəndə..." publisistik məqalələri, prof. Asif Rüstəmlinin "Cəfər Cabbarlı Cümhuriyyət dönəmində", "Cəfər

Cabbarlı repressiyalar məngənəsində" elmi-publisistik məqalələri araşdırmaya cəlb olunmuşdur.

Müasir dövrün qlobal problemlərindən olan ekoloji problemlər publisistikanın aktual mövzusu olaraq qalmaqdadır.

Dissertasiyanın **"Publisistika müstəvisində ekoloji problemlər: baxışlar və axtarışlar"** adlı dördüncü yarımfəslində araşdırılan Ələkbər Abbasovun "Zəhər", Vəli Həbiboğlunun "Ekoloji fəlakət qarşısında", Rəhman Səmədovun "Azərbaycan yaşıllıqları: onu qoruya bilirikmi?", Ağacəfər Həsənlinin "Cənub meşələrinin həyəcanı", Əbülfət Qasımovun "Ekosid" ekoloji oçerkləri dünyanın ən böyük qlobal məsələlərindən olan ekoloji problem mövzusundadır. Publisistlər məsələyə daha çox qnesoloji baxımından, yəni təbiətlə cəmiyyətin qarşılıqlı əlaqəsinin subyekt-obyekt münasibətləri kontekstindən yanaşmışdır.

Sovet dövründə ideoloji yanaşmalar səbəbindən publisistikada türk dünyası mövzusu bəzən təhrif olunaraq birtərəfli təqdim olunmuş, obyektiv şəkildə dəyərləndirilməmişdir. XX əsrin əvvəllərində xalqın intellekt və emosiya prosesinin, potensialının oyandığı dövrdə sovet rejiminin zorən tətbiqi, antimilli təbliğat kompaniyası, xalqın kimliyindən, keçmişindən, tarixi statusundan məhrum etmək siyasəti  bütün başlanan milli oyanış proseslərini yarımçıq qoydu. Müstəqillik illərində mətbuatda türkçülük təbliğatı milli özünüdərkin formalaşmasına böyük təsir göstərdi. Milli kökə qayıdış, milli mənlik şüurunun oyanması, milli istiqlal düşüncəsinin, milli ideologiyanın formalaşması, genetik yaddaşın dirçəldilməsi publisistikada da türk dünyası mövzusuna qarşı böyük maraq oyatdı. Bu səbəbdən ortaq mədəniyyətə və düşüncə sisteminə malik türksoylu xalqların Azərbaycanla bağlı ədəbi əlaqələrindən bəhs edən bu mövzunun "Azərbaycan" jurnalının publisistik materialları əsasında araşdırılması bu gün xüsusi aktuallıq kəsb edir. Milli kökə qayıdış mövzusu eyni zamanda, azərbaycanlılara qarşı törədilən soyqırımlara nəzər yetirməyə, araşdırmağa vadar edir.

Dissertasiyanın "**Milli kökə qayıdış və türk dünyasının publisistikada bədii əksi"** adlı üçüncü fəslində "Azərbaycan" jurnalı publisistikasında Türk dünyası mövzusunun qaynaqları Türkiyə, İran, İraq, Türkmənistan, Özbəkistanda, vaxtilə Qərbi Azərbaycanda, yaşayan türklərin ictimai-siyasi, mədəni mühiti ilə bağlıdır. Bu fəsil **"Bədii publisistikada Türkiyə mövzusu", "Orta Asiya və İraq türkləri araşdırmalarda", "Azərbaycan" jurnalında soyqırım, repressiyalar, deportasiyalar", "Cənubi Azərbaycan mövzusunun publisistikada bədii təcəssümü", "Azərbaycan" jurnalı publisistikasında sənətkarlıq xüsusiyyətləri"** adlı 5 yarımfəsildən ibarətdir.

1960-cı illərdən sonra Azərbaycan publisistlərində Türkiyə mövzusuna maraq oyandı. Sosialist hakimiyyətindən çıxıb kapitalist, burjua münasibətlərinin hökm sürdüyü cəmiyyətdə Türkiyəni görməyən sovet adamı üçün bir ölkə kimi nə qədər yeni idisə, bir o qədər informativ xarakter baxımından maraqlı hesab olunurdu.

Dissertasiyanın **"Bədii publisistikada Türkiyə mövzusu"** adlı yarımfəslinin əsas tədqiqat obyekti olan Mehdi Hüseynin "Bir ay və bir gün", Nigar Rəfibəylinin "Sağlıqla qal, yaxın qonşu", Elçinin "Yaxın, Uzaq Türkiyə", Məmməd Aslanın "Ərzurumun gədiyinə varanda...", Əli Səmədlinin "Mən bir ceviz ağacıyam Gülxanə parkında", Aybəniz Əliyevanın (Kəngərli) "Ziya Göyalp", "Türklüyün fədaisi" adlı publisistik əsərləridir.

Ümumilli lider Heydər Əliyevin bəyan etdiyi "Biz bir millət, iki dövlətik" deyimi hər bir azərbaycanlı və türkiyəli üçün bu gün də prioritet istiqamətdir. Müstəqillik illərində Azərbaycan Respublikasının türkdilli dövlətlərlə, müxtəlif respublikalar tərkibində kompakt halda yaşayan türk xalqları ilə geniş və hərtərəfli əlaqələr qurması və inteqrasiya proseslərində yaxından və fəal iştirak etməsi türk dünyasında birlik və əməkdaşlığın inkişaf edib möhkəmləndirilməsinə sanballı töhfələr verir.

Dissertasiyanın **"Orta Asiya və İraq türkləri araşdırmalarda"** adlı ikinci yarımfəslində Osman Sarıvəllinin "Ən dəyərli hədiyyə", Məmməd Orucun "Buxara əsirinin sirri", Fəxrəddin Əliizinin "Maxtımqulu vətənində", Zakir Sadatlının "Gündoğandan Günbatana", Əzizə Türkanın "Evimdən Allahın evinə" publisistik əsərləri tədqiqata cəlb olunmuşdur.

"Azərbaycan" jurnalı publisistikası türk dünyası mövzusunu əhatə arenasına görə geniş spektrlidir. Tarixən bir-biri ilə eyni dəyərləri paylaşan bu millət 70 illik sovet dövründə tamamilə fərqli inkişaf yolu və həyat tərzi keçmişdir. Bu özünü oçerklərin müəlliflərinin dünyagörüşündəki müxtəlif aspektlərdə, yaxud kapitalist münasibətlərinə qarşı dilletant yanaşmalarında göstərmişdir. Müasir dövrdə türk dünyasının ictimai-siyasi, ədəbi-mədəni birliyini zəruriləşdirən müxtəlif qlobal amillər türk xalqlarının mənəvi birliyinə ehtiyac duyur.

Publisistika ictimai və milli şüuru gücləndirən funksiyaya malik olduğundan qloballaşma prosesində türk xalqları ilə ədəbi-mədəni əlaqələri daha da inkişaf etdirilməsi ehtiyacını da zəruri edir. Eyni mədəniyyət, dil, tarix kökləri ilə bir-birinə bağlı olan türk xalqlarına həsr olunmuş publisistik əsərlərin gələcəkdə yazılmasına, ədəbi-mədəni əlaqələrin daha da genişləndirilməsinə böyük ehtiyac var.

Dissertasiyanın **"Azərbaycan" jurnalında soyqırım, repressiyalar, deportasiyalar"** adlı üçüncü yarımfəslində son iki əsr ərzində ermənilərin

azərbaycanlıları öz doğma vətənindən mərhələ-mərhələ deportasiyası, məruz qoyduğu soyqırımların tarixi köklərinin araşdırılması ilə bağlı Nəriman Həsənlinin "Tayqulaq xalq qəhrəmanı" və ya quldur Andronik...", Teymur Əhmədovun "Erməni xəyanəti (Andranik Ozanyanın vəhşiliyi)", Əbülfət Qasımovun "Genosid", Fərman Kərimzadənin "Vedinin yanı dağlar...", Teymur Əhmədovun "Nadanlıq, yaxud qaçqınların taleyi kimin əlindədir?", Musa Urudun "Urud" və s. publisistik əsərlər araşdırmaya cəlb olunmuşdur.

1918-1920-ci illərdə türklərə qarşı soyqırım siyasəti yürüdən Çar Rusiyasının uydurduğu "Böyük Ermənistan" xülyasının "ləyaqətli" icraçılarından olan erməni qulduru Andronik publisistlərimiz tərəfindən ikiüzlülüyü, xəyanətkarlığı ilə daim ifşa olunmuşdur. Müasir dövr Fransa mətbuatında Androniki "milli qəhrəmanı" elan edərək yazılara etiraz edən N.Həsənlinin "Tayqulaq "xalq qəhrəmanı" və ya quldur Andronik..." məqaləsində Andronikin Türkiyənin Ərzurum, Muş, Van, Qars cəbhəsində, 1912-1913-cü illər Balkan müharibəsində, Şaumyanın dəstəyi ilə Naxçıvanda, Zəngəzurda törətdiyi qırğınların tarixinə nəzər salır.

Əbülfət Qasımov "Genosid" publisistik məqaləsində Azərbaycan torpaqlarında etnik təmizləmə aparan erməni siyasətinin tarixi kökünü araşdırmış, İ.Dyakonov, M.Abeqyanın qənaətlərinə istinad edərək belə nəticəyə gəlir ki, ermənilər yunan və frakiyalıların əcdadları ilə yaşamış, oradan Kiçik Asiyaya gəlmiş, erməni çarlığını Böyük Tiqranın dövründə (e.ə. 95-96-cı illərdə) yaratmış, XVIII-XIX əsrlərdə Rusiya imperiyasının təcavüzkarlıq siyasəti nəticəsində Cənubi Qafqaza köçürülmüşdür. Publisist ermənilərin Azərbaycana qarşı düşmənçilik fəaliyyətinin aktiv və passiv dönəmlərini xüsusi vurğulayır. Əslində publisistin tarixi prosesə zərər vuran amilin tarixi kökünü araşdırması predmətə düzgün yanaşmasıdır.

İsa İsmayılzadənin "Üç il də belə gəlib keçdi..", "Gözü yolda qalan şəhid ruhları", Almaz Ülvinin "Günəşinə qovuşan Ülvim", Faiq Balabəylinin "Dəryada gəmim qalıb", İntiqam Qasımzadənin "Narahat ruhlar", Bəxtiyar Vahabzadənin "Şənbə gecəsinə gedən yol" və s. publisistik əsərlərdə azərbaycanlılara qarşı törədilən Qanlı 20 Yanvar soyqırımı müəlliflərin şahidi olduqları hadisələr fonunda öz əksini tapmışdır. Adı çəkilən publisistik məqalələrdə faktoqrafiyaya meyllilik daha çox müşahidə olunsa da, fəlsəfi düşüncə, mülahizələr, analogiyalara da yer verilmişdir.

Cənubi Azərbaycan tarixi və onun obyektiv tədqiqi problemi Azərbaycan publisistikası üçün aktual məsələlərdən sayılır. Cənub mövzusunun sovet dövrü publisistikasının düşüncə orbitində başlanması nəticəsində yeni bir geosiyasi vəziyyətin yaranması oldu.

Dissertasiyanın **“Cənubi Azərbaycan mövzusunun publisistikada bədii təcəssümü”** adlı yarımfəslində tədqiqata cəlb olunan Əlfi Qasımovun “Azadlıq günəşi doğacaqdır”, Rəhim Dəqiqinin “Şahidin dedikləri”, Nəbi Xəzrinin “Doqquz gün, doqquz gecə...”, Cabir Novruzun “Bakıdan Təbrizəcən”, Sabir Rüstəmxanlının “Qayıdıram Araz boyu” və s. əsərləri cənub mövzusundadır.

Sovet dövründə Cənubi Azərbaycan mövzusunda yazılmış oçerklərdə publisistlərin mövcud ictimai problemlərə yanaşmasında birtərəflilik özünü göstərir. Belə ki, İrana səfər edən publisist tarixi kökə, milli yaddaşa qayıdıb xalqın ikiyə parçalanmasını, Türkmənçay sülh müqaviləsini icra edən, hətta Səttarxan inqilabının yatırılmasında şaha dəstək göstərən Rusiyanı tənqid etməkdən çəkinir, daha çox fars şovinizminin ifşasına üstünlük verirdi.

Hal-hazırda azərbaycanlıların kompakt halda yaşadığı ərazilərdə mətbuat orqanlarının dili olan Azərbaycan türkcəsi ərəb və fars sözləri ilə eybəcər hala salınır. Azərbaycan xalqının milli varlığını inkar etməyə cəhd edən və öz təcavüzkarlığına bəraət qazandırmaq istəyən fars şovinistlərinə arqumentli cavab verə biləcək publisistikaya müasir dövrdə də böyük ehtiyac var.

Dissertasiyanın **“Azərbaycan” jurnalı publisistikasında sənətkarlıq xüsusiyyətləri”** adlı beşinci yarımfəsli “**Janr və struktur problemləri**” və “**Dil, üslub və bədiilik məsələləri”** adlı 2 paraqrafdan ibarətdir.

“Azərbaycan” jurnalında sovet rejiminin təbliğinə həsr edilmiş publisistik əsərlərin əksəriyyəti sənətkarlıq baxımından ideoloji məhdudiyyətlərə düçar olduğundan təsvirçilik, təbliğatçılıq, şüarçılıq mühüm yer tuturdu. Sovet dövrü təbliğatının ruporuna çevrilmiş publisistikada hökm sürən sxematizm, şablonçuluq, trafaretizm bədii söz sənətinin inkişafına, mükəmməl tərəqqisinə mane olurdu. Həmin dövrdə güclü operativ təsir imkanlarına malik olan oçerk janrı ictimai fikri yönləndirməyə istiqamətlənmiş, ədəbi-bədii düşüncədə dominant rolunda çıxış etmişdir.

“Azərbaycan” jurnalı publisistikasının janr tipologiyasında da oçerk həmişə aparıcı olmuşdur. Bədii tematikası baxımından oçerklərdə differensiallıq özünü göstərsə də, Sovet dövründə kəmiyyət baxımından daha çoxluq təşkil edir. 1950-ci illər oçerklərində publisist bədii ümumiləşdirməsi zəifdir, xarakterlər birtərəfli, zəif təsir bağışlayır, insanın mənəvi yüksəlişi sənaye və kənd təsərrüfatının inkişafı, nailiyyətləri ilə birbaşa bağlı idi. Tarixə “xruşovsayağı yumşalma” dövrü kimi düşən 1960-cı illər publisistikasında ideoloji yasaqların zəifləməsi ilə fikrin ifadəsi üçün nisbətən əlverişli imkanlar yarandı. 1980-ci illərin publisistikasında 1950-60-cı illərin oçerk-

ləri vaxtı keçmiş anarxizm kimi görünürdü. Bu dövrdə artıq oçerklər hakim ideologiyanın sənət prinsiplərindən kənara çıxdı.

Müstəqillik dövrü "Azərbaycan" jurnalında, xüsusilə, Qarabağ mövzulu publisistikada oçerklər, gündəliklər, məqalələr üstünlük təşkil edir ki, bu da publisistlərimizin dövrün sənədli salnaməsini yaratmaq məramı ilə bağlıdır. Müharibənin ilk illərindən "Azərbaycan" jurnalında çap olunan publisistik əsərlər – oçerk, məqalə, cəbhə gündəliyi və xatirələr hələ qələmi püxtələşməmiş döyüşçülərə, müharibə iştirakçılarına, şahidlərinə məxsus olsa da, bu əsərlərdə cəbhə bölgələrindəki qanlı hadisələrin tarixi xronikası əks olunub. Süjet və kompozisiya baxımından zəif strukturlu publisistik əsərlər də "Azərbaycan" jurnalında yer almaqdadır. Ancaq "Azərbaycan" jurnalı publisistikasında müəlliflər bədii dilin siqlətindən, çoxqatlı çalarlarından, fikrin obrazlı ifadə tərzindən qədərincə istifadə etməyə, faydalanmağa çalışmışdılar.

Sovet dövründə publisistik oçerklərində formalizmə, sözçülüyə, ştamplara meylillik güclü olduğundan dil və üslub cəhətdən zəif əsərlərin yaranmasına yol açırdı. Buna görə də 1950-ci illər oçerklərində informasiya və təsvir dairəsinin genişliyi ideya estetik təsir gücünü aşağı salırdı. Müstəqillik dövründə demokratik söz azadlığı bədii publisitikanın birbaşallıq funksiyasının gücləndirdi, dil və üslubun ifadə imkanlarının sərhədlərini genişləndirdi.

İstər sovet, istərsə də müstəqillik dövründə "Azərbaycan" jurnalının publisistika janrları zamanla birgə addımlamış, yeni mövzularla zənginləşmiş, onun bədii formalarının üfüqləri əhəmiyyətli dərəcədə genişlənmişdir. Müxtəlif tipli, bir-birinə bənzəməyən süjet və kompozisiya quruluşuna malik publisistik əsərlərin sayı həddindən artıq çoxdur. Buna görə də onları cəmləşdirib bir tədqiqat əsərində söhbət açmaq, geniş elmi-poetik təhlilləri verməsi, əlbəttə ki, imkan xaricindədir.

Ümumiyyətlə, "Azərbaycan" jurnalı publisistikasında dil və üslub baxımından konkret, aydın olmuş, jarqon və əyalətçiliyə deyil, ümumazərbaycan ədəbi dilinə üstünlük verilmişdir. Jurnalın bədii publisistikası şifahi xalq ədəbiyyatının, obrazlı xalq təfəkkürünün incəliklərinə, zənginliklərinə, məna gözəlliklərinə dərindən bələd olub, onu bədii yaradıcılığın inkişaf, öyrənmə və faydalanma mənbələrindən birinə çevirə bilmişdir. Buna görə də dissertasiyanın "Azərbaycan" jurnalı publisistikasında sənətkarlıq xüsusiyyətləri" adlı yarımfəslin araşdırılması mühüm əhəmiyyət kəsb edir.

"Azərbaycan" jurnalında publisistika məsələləri (1953-2010) probleminin araşdırılması maraqlı elmi nəticələrə gətirib çıxarmışdır:

- Araşdırma zamanı müəyyənləşdirilmişdir ki, "Azərbaycan" jurnalında, ümumillikdə, bütün dövrlərdə daha çox bədii publisistika, müstəqillik dövründə isə siyasi, elmi publisisitika aparıcı mövqe qazanmışdı.

- Sovet dövrü "Azərbaycan" jurnalı publisistikası öz tematikasına görə monoton olmuş, xalqın milli oyanışına xidmət edən problemlərə toxunulmamışdı. Müstəqillik dövrü "Azərbaycan" jurnalı publisistikasının çoxrəngarəngliyi, predmetə yanaşma tərzi baxımından sovet dövründən kəskin şəkildə seçilirdi. Sovet dövrü tədqiqatlarında hakim ideoloji təsirin nəticəsində "Azərbaycan" jurnalının tədqiqi ilə bağlı kölgədə qalan bəzi məqamlar ilk dəfə bu tədqiqatda aşkarlanmışdır.

- Sovet dövrü "Azərbaycan" jurnalı publisistikasını araşdıran zaman bir daha belə bir qənaətə gəlmək olur ki, köhnəliklə yeniliyin mübarizəsi, zamanın sifarişləri əsasında proqramlaşdırılmış zəhmətkeş insan obrazının qəhrəmanlığının yazıçı təsvir edərkən gerçəkliyə yüksək səviyyədə diqqət göstərməmişdir. Bunun arxasında da əsas məqsəd milli gücü zəiflədərək passiv saxlamaq, vətənpərvərlik hissini şəxsi mənafeləri naminə istifadə etmək idi.

- Sovet dövründə yazılmış səfər təəssüratları ilə bağlı oçerklərdə publisistin təsvirçiliyə meyl etməsi, burjua münasibətlərini qamçılanması zamanın tələblərindən irəli gəlirdi. Qloballaşma və inteqrasiya proseslərinin sürətlə getdiyi indiki şəraitdə Azərbaycan gerçəkliklərinin Qərb dünyasına tanıdılması zərurəti aktual məsələlər sırasında yer almaqdadır. İnternet axtarış resurslarının olmadığı, oxucular tərəfindən xarici ölkələr haqqında məlumatın böyük maraqla qarşılandığı sovet dövründə oçerklərin müəlliflərinin dünyagörüşü, peşə fəaliyyətlərinə daha uyğundur. Şərq və Qərb məkanında mədəniyyətlərarası dialoqların artması və prosesin qarşılıqlı faydagötürmə zəminində inkişafı zərurəti publisistikada bu tarixi təcrübənin araşdırılıb perspektiv fəaliyyət baxımından dəyərləndirilməsini aktuallaşdırır. Buna görə də "Azərbaycan" jurnalı publisistikasında Amerika, Avropa, Hindistan, Yaponiya, Afrika mövzusu probleminin sistemli tədqiqi çağdaş filoloji fikrin tələblərinə uyğundur.

- Sovet dövrü "Azərbaycan" jurnalı publisistikası bir sıra ənənələri yeni dövr publisistikasının inkişafına təkan vermişdir. Publisistikanın janrlar, formalar, nəzəri müddəaları bu dövrdə inkişafı, ancaq publisistikanın obyekti, təbliğatçılıq vəzifəsi, dövrün publisistlərinin yaradıcılığının potensialının tam üzə çıxmasına imkan verməmişdi.

- Müstəqillik dövrü publisistikası ictimai-siyasi məzmun daşımaqla yanaşı bədii estetik dəyər kəsb etmişdir. Bu dövrün publisistikasının təsvir imkanlarında tam qüsursuzluğu da inkarolunmazdı. Müasir dövr publisisti-

kasında cəmiyyətin mövcud problematikasına əhatəli nüfuz etməkdə bir növ passivlik də özünü göstərirdi. Belə ki, Sovet dövrü "Azərbaycan" jurnalı publisistikasında ümumbəşəri mövzulara, dünyamiqyaslı problemlərə birtərəfli yer verilsə, müasir dövr publisistikasında həyatı əks etdirmə baxımından bu barədə zəiflik hələ də qalmaqdadır. Yeni yaradıcılığa başlamış publisistlərdə bu halın müşahidə edilməsi hardasa normal idi. Müstəqillik dövründə bu problemin səbəbi keçid və yeniləşmə dövrünün böhranlarından biri olsa da, digər tərəfdən publisistlərin bu mövzuya maraq göstərməməsidir. 1988-ci ildən publisistikanın baş tematikası olan Qarabağ müharibəsinin gündəmə gəlməsi publisistlərdə müstəqil fikrin yürütmək qabiliyyətini intensivləşdirdi. Azərbaycanlılara qarşı törədilmiş soyqırım tarixi ilə bağlı bir sıra həlli vacib məsələlər ortaya çıxdı.

- Müstəqillik dövründə publisistikanın təsvir imkanlarında qüsursuzluq da inkarolunmazdı. Bu problemin bir səbəbi keçid və yeniləşmə dövrünün böhranlarından biri olsa da, digər səbəbi publisistlərin bu mövzuya maraq göstərməməsidir.
- Müstəqillik illərində tarixi şəxsiyyətlərin sənədli obrazlarının yaradılmasında sırf tarixi fakta istinad, təhrifdən uzaq obyektivlik özünü göstərsə də, qlobal və ekoloji problemlərin təsvirində statistik məlumatlara güclü meyllilik, publisistin mövcud problemin həlli yolunda dərinliyə varmamaq cəhdi diqqəti çəkir.
- Azərbaycanda yetmiş il ərzində qadağan edilmiş ümumtürk ədəbiyyat və mədəniyyətinin milli-tarixi zəmində tədqiqi elmi-mədəni əlaqələrimizin öyrənilməsi üçün yeni səhifələrin açılmasına səbəb olmuşdur. Bu cəhətdən Azərbaycan – Türkiyə, eyni zamanda, digər türk dövlətləri ilə olan mədəni əlaqələrin daha geniş aspektdə öyrənmək və bu əlaqələri publisistik kontekstdə izləməklə real fakt və münasibətləri qaldırmaq, türk xalqlarının elmi, mədəni mühitdə inteqrasiyasını önə çəkmək müasir dövrdə də aktual məsələ kimi mühüm əhəmiyyətə malikdir.

Yarım əsrdən çox dövrü əhatə edən, 400-ə yaxın publisistik əsərdən qaynaqlanan "Azərbaycan" jurnalında publisistika məsələləri (1953-2010)" mövzusunda yazılmış dissertasiya işinin elmi əhatə dairəsi olduqca genişdir. "Azərbaycan" jurnalında publisistikasında öz əksini tapan dünya tarixindəki Constaun fəlakəti, Çernobıl faciəsi, Türkiyədə baş verən terror hadisələri, dünya və Azərbaycan ədəbiyyatı məsələləri, dil və din siyasəti, neft faktoru, multikulturalizm, qlobal problemlər, İraq, Qarabağ müharibəsi, erməni soyqırımı və s. mövzuları onun faktoqrafiyasının, problematikasının bütün dövrlərdə mühüm aktuallıq kəsb etdiyinin göstəricisidir.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı məqalə və tezislərində öz əksini tapmışdır:**

1. 20 Yanvar faciəsi bədii publisistikada ("Azərbaycan" jurnalının materialları əsasında) / "Tarixdə Soyqırımlar: Faktlar, Reallıqlar, Uydurmalar" Beynəlxalq simpoziumunun tezislər kitabı. Bakı şəhəri, 2-3 aprel 2015-ci il. Bakı: 2015, s. 23-24.
2. Mesenat Hacı Zeynalabdin Tağıyev "Azərbaycan" jurnalının publisistikasında / Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş Gənc Tədqiqatçıların III Beynəlxalq Elmi Konfransının materialları II kitab. Bakı şəhəri, 17-18 aprel 2015. Bakı: Qafqaz Universiteti, s. 826-827.
3. İstiqlalımızın çətin yollarında: tarixi gerçəklik və bədii həqiqətlər ("Azərbaycan" jurnalı materialları əsasında) // Filologiya məsələləri, 2015, №3, s. 272-277.
4. Tofiq Abdinin "Dövlət çevrilişi" əsərində Heydər Əliyev obrazı / Ümumilli Lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş "Azərbaycanşünaslığın aktual problemləri" mövzusunda VI Beynəlxalq Elmi konfransın materialları, II hissə. Bakı şəhəri, 5-7 may 2015. Bakı: Mütərcim, 2015, s. 360-363.
5. M.Ə.Rəsulzadə ailəsi repressiya dönəmində: tarixi həqiqət və bədii gerçəklik (Murtuz Sadıqlının "M.Ə.Rəsulzadə ailəsinin faciəsi" sənədli povesti əsasında) / Azərbaycan Milli Elmlər Akademiyasının yaranmasının 70 illiyinə həsr olunan "Akademik Elm Həftəliyi – 2015" Beynəlxalq Multidissiplinar Forumunun tezislər kitabı. Bakı şəhəri, 2-4 noyabr 2015. Bakı: 2015, s. 44-46.
6. Bəxtiyar Vahabzadə publisistikasında soyqırım // Bakı Qızlar Universitetinin Elmi əsərləri, 2015, №3 (23), s. 7-11.
7. Образы нефтяника в советской публицистике и нефтяной фактор (на основе материалов журнала "Азербайджан") // Держава та регіони. Серія: Гуманітарні науки. Украіни: Класичний приватный університет, 2015, №2 (41), с. 88-92.
8. Qarabağ mövzusu bədii publisistikada ("Azərbaycan" jurnalının materialları əsasında) // AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun "Axtarışlar" jurnalı, 2015, cild 5, №4, s. 37-44.
9. 1918-1920-ci illərdə ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi soyqırımların "Azərbaycan" jurnalında əksi / AMEA Tarix İnstitutunun Elmi Əsərləri, Xüsusi buraxılış, "Azərbaycan və Şərqi Anadoluda türk-müsəlman əhaliyə qarşı soyqırımları (1914-1920-ci illər)" mövzu-

sunda III Beynəlxalq Elmi konfransın materialları. Şamaxı şəhəri, 7-10 aprel 2016. Bakı: "Turxan" NPB, 2016, s. 457-460.

10.Xarici müəlliflərin publisistikası "Azərbaycan" jurnalında // Dil və Ədəbiyyat, Beynəlxalq elmi-nəzəri jurnalı, BDU, 2016, №1(97), s. 338-340.

11."Azərbaycan" jurnalının publisistikasında müharibə psixologizmi / Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş Gənc Tədqiqatçıların IV Beynəlxalq Elmi Konfransının materialları, II hissə. Bakı şəhəri, 29-30 aprel 2016. Bakı: Qafqaz Universiteti, 2016, s. 1041-1042.

12."Azərbaycan" jurnalının publisistikasında Hindistan və Yaponiya ədəbi-mədəni əlaqələri // "Sivilizasiya" jurnalı, 2016, №3 (27), s. 45-50.

13.Russian authors in "Azerbaijan" journal publicity / «Научная дискуссия современной молодёжи: актуальные вопросы, достижения и инновации» международная научно-практическая конференция, Пенза, 28 сентябр 2016. Пенза: МЦНС «Наука и просвишения», с. 249-250.

14."Azərbaycan" jurnalı publisistikasında ekoloji problemlər / "XXI əsrdə dünya elminin inteqrasiya prosesləri" mövzusunda Beynəlxalq Elmi konfrans, Gəncə şəhəri, 10-14 oktyabr 2016. Bakı: Xəzər Universiteti, s. 465-466.

15.Bəxtiyar Vahabzadə publisistikasında milliözünüdərk ("Azərbaycan" jurnalı materialları əsasında) // "Risalə" araşdırmalar toplusu. 2015, № 11, s. 38-41.

16."Azerbaycan" dergisi seyahetnamelerinde Türkiye edebiyatı meseleleri / III Uluslararası çocuk ve gençlik edebiyatı sempozyumunun bildiriler kitabı. İstanbul, 21-22 Ekim 2016. İstanbul: Step Matbaacılık, s. 406-412.

17."Azərbaycan" jurnalı publisistikasında Türkmənistan / Gənc Türkoloqların I Türkoloji Qurultayın 90 illiyinə həsr olunmuş "Müasir Türkoloji tədqiqatlar: problem və perespektivlər" mövzusunda Beynəlxalq Elmi Konfransının materialları, Bakı şəhəri, 21-22 noyabr 2016. Bakı: Adiloğlu, 2016, s. 111-112.

18.20 January tragedy in figurative publicity (on the basis of "Azerbaijan" journal) / Научные достижения и открытия современной молодёжи, Международная научно-практическая конференция, Пенза, 17 февраля 2017, часть 1. Пенза: МЦНС «Наука и просвишения», с. 991-992.

19.Turkic peoples culturals in azerbaijani publicists view/ Традиционная культура тюркских народов в изменяющемся мире: материалы I

Международной научной конференции, Казань, 12-15 апреля 2017. Казань: Ак Буре, с. 358-361.

20.Zakir Sadatlının "Gündoğandan Günbatana" əsərində İraq mövzusu / Gənc Tədqiqatçıların I Beynəlxalq Elmi Konfransının materialları, Bakı şəhəri, 5-6 may 2017. Bakı: BMU, s. 725-726.

21."Azərbaycan" jurnalı publisistikasında multikulturalizm // "Gənc tədqiqatçı" jurnalı, 2017, №1, s.193-197.

22.Cənubi Azərbaycan mövzusunun publisistikada bədii təcəssümü ("Azərbaycan" jurnalının materialları əsasında) // Azərbaycan MEA-nın Xəbərləri. Humanitar elmlər seriyası, 2017, №2, s. 84-87.

23."Azərbaycan" jurnalının səhifələrində "Molla Nəsrəddin" ənənələri // Ədəbiyyat Məcmuəsi. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Əsərləri. 2017, XXXI cild, s. 328-334.

24."Azərbaycan" jurnalının tarixindən // "Azərbaycan" jurnalı, 2018, №1, s.187-191.

**Айнура Нияз кызы Пашаева**

**Проблемы публицистики в журнале «Азербайджан» (1953-2010)**

**РЕЗЮМЕ**

Диссертация состоит из введения, трех глав, заключения и списка использованной литературы. Во «Введении» обосновывается актуальность темы, излагаются объект и предмет, научно-теоретические и методологические основы исследования, цели и задачи, научная новизна, теоретическое и практическое значение исследования.

Первая глава под названием «Публицистика советского периода в журнале «Азербайджан» (1953-1991)» состоит из шести разделов:«Художественная публицистика и ее роль в журнале «Азербайджан», «Характерные особенности и тематика публицистики советского периода», «Образы нефтяников и нефтяной фактор в публицистике», «Литературные портреты в публицистике», «Традиции «Молла Насреддина» на страницах журнала «Азербайджан», «Международные литературно-культурные связи и художественная публицистика». В каждой из этих частей раскрываются поставленные в заголовках проблемы.

Во второй главе под названием «Публицистика «Азербайджан»а вperiod независимости: проблемы, перспективы (1991-1920)» рассмотрены, такие проблемы как «Проблема Карабаха в художественной публицистике», «Исторические личности в публицистике: в свете искусства и реальности», «Проблемы экологии в публицистике: поиски и концепции».

Третья часть, называется «Возвращение к народным истокам и художественное отображение турецкого мира в публицистике». Здесь рассматриваются актуальные для современного этапа литературные отношения. Азербайджана с тюркскими народами, которые связаны общей культурой и системои мышления. В данной главе рассмотрены такие проблемы как «Тема Турции в художественной публицистике», «Турки Средней Азии и Ирака в исследованиях», «Тема репрессий, геноцида и депортации в журнале «Азербайджан», «Художественное отображение темы Южного Азербайджана в публицистике». Раздел «Особенности литературного мастерства в публицистике журнала «Азербайджан» состоит из двух частей: «Проблемы жанра и структуры» и «Вопросы языка, стиля и художественности». Это очень важно при изучении теории публицистики.

В «Заключении» диссертации обобщаются основные положения и выводы, излагаются важнейшие научно-теоретические принципы диссертации.

**Aynura Niyaz qizi Pashayeva**

## Issues of publicity in "Azerbaijan" journal (1953-2010)


## SUMMARY

The dissertation work consists of "İntroduction", three chapters, "Conclusion" and "Reference". The urgency of the theme has been based the object, the subject, the aims and duties, scientific-theoretical and methodological basis of the scientific work has been explained, the scientific innovation, theoretical and practical importance of the dissertation has been clarified in the "Introduction".

The first chapter named "Publicity of the Soviet period (1953-1991) in the "Azerbaijan" journal" consists of six sections: "Literary publicity and its place in "Azerbaijan" the journal", "Characteristic features and problematics of the theme of the Soviet period publicity", "The characters of oilman and oil factor in the publicity", "Literary portraits in the publicity", "Molla Nasreddin" traditions on the pages of the "Azerbaijan" journal", "International literary-cultural relations and literary publicity". Each section has been dealt within its topic.

The second chapter named "Publicity in the period of the independence "Azerbaijan": problems, perspectives (1991-2010)" consists of three sections as "Karabakh problem in the literary publicity", "Historical personalities in the publicity: in the light of arts and truth", "Ecological problems in the context of publicity: views and searches".

The research of the third chapter named as "The return to the national generation and the literary reflection of the Turkish world in the publicity" dealing with the literary relations of the turkish nations consisting of the system of common culture and thought with Azerbaijan is a special actual problem today.

The research  of the sections of the third chapter named as "The subject of Turkey in the literary publicity". "Middle East and Iragi-Turks in the researches", "Genocide, repressions, deportations in the "Azerbaijan" journal", "The literary incarnation of the theme of the South Azerbaijan in the publicity". The analysis of craftsmanship features of the publicism works in the subsections "Genre and structural problems" and "Language, style and literary issues" including  to the section "The features of the craftsmanship in the publicity of the "Azerbaijan" journal". It is important for studying the theory of publicity.

Final items of dissertation have given to the attention and generalized achieved scientific-theoretical considerations in the "Conclusion".

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ЛИТЕРАТУРЫ ИМ. НИЗАМИ ГЯНДЖАВИ**

*На правах рукописи*

**АЙНУРА НИЯЗ кызы ПАШАЕВА**

# ПРОБЛЕМЫ ПУБЛИЦИСТИКИ В ЖУРНАЛЕ «АЗЕРБАЙДЖАН» (1953-2010)

5716.01- Азербайджанская литература

**АВТОРЕФЕРАТ**

диссертации на соискании научной степени
доктора философии по филологии

**БАКУ – 2018**

**Çapa imzalanmışdır: 12.02.2018**
**Kağız format: 60x84 1/16**
**Sayı: 100 nüsxə**
**ADMİU-nun mətbəəsində çap edimişdir.**
**Ünvan: Bakı şəh., H.Zərdabi küç., 39 a**
**Tel: (012) 434 – 50 – 04**